KOB

Azərbaycan Respublikasının
Kiçik və Orta Biznesin
İnkişafı Agentliyi

# "Mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinin bölgüsü meyarları"

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 21 dekabr 2018-ci il tarixli Qərarı ilə "Mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinin bölgüsü meyarları" təsdiq edilib.

Qərara əsasən, sahibkarlıq subyektlərinin əvvəlki bölgü meyarları dəyişdirilərək, "kiçik", "orta" və "iri" sahibkarlıq qrupları ilə yanaşı, "mikro sahibkarlıq" qrupu da müəyyənləşdirilib. Bu, mikro sahibkarların ayrıca qrup olaraq qeydiyyata alınmasında və bununla da sahibkarlığın əhatə dairəsinin genişləndirilməsində əhəmiyyətlidir.

Meyarlara əsasən, mikro sahibkar işçilərin sayı 10-dək, illik gəliri 200 min manatədək olan, kiçik sahibkar işçilərin sayı 11-50, illik gəliri 3 milyon manatədək, orta sahibkar isə işçilərinin sayı 51-250, illik gəliri 3-30 milyon manat olan sahibkarlardır. İllik gəlirə hesabat ili ərzində təqdim edilmiş malların, görülmüş işlərin və göstərilmiş xidmətlərin dəyəri, həmçinin satışdankənar gəlirlər aiddir.

Sahibkarların mikro, kiçik, orta və ya iri sahibkar kimi müəyyənləşdirilməsi üçün "işçilərin orta siyahı sayı" və "illik gəlir" meyar göstəricilərindən daha yüksək olanı əsas götürülür.

Yeni yaradılan sahibkarlıq subyektlərinin mikro, kiçik, orta və ya iri sahibkarlar kimi müəyyənləşdirilməsində onların dövlət qeydiyyatına və ya vergi uçotuna alındığı tarixdən 1 (bir) il müddətində müəyyən edilmiş işçilərin say göstəricisi əsas götürülür.

Sahibkarların mikro, kiçik, orta və ya iri sahibkarlara aid edilməsi Azərbaycan Respublikasının Vergilər Nazirliyi və Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinə ötürülən həmin sahibkarlıq subyektləri haqqında məlumatlar əsasında müəyyənləşdirilir və il ərzində dəyişməz qalır.

Daha ətraflı: https://cabmin.gov.az/az/document/3251/